# Birlikdən doğan güc:

# Azərbaycan-İran münasibətlərində etimad və əməkdaşlıq

*İran siyasətinin dəyişkən və mürəkkəb palitrasında yeni bir ümid işığı yanır. Məsud Pezeşkianın prezidentliyi dövrü həm qonşu dövlətlər, həm də qlobal sfera üçün olduqca əhəmiyyətlidir. İslahatçı düşərgənin parlaq simalarından biri olan Pezeşkian illərdir davam edən siyasi durğunluğa son qoymaq, İranı yenidən beynəlxalq arenada qəbul etdirmək üçün çalışır. Onun bu missiyanı üzərinə götürməsi heç də təsadüfi deyil. Çünki Pezeşkian və onun təmsil etdiyi islahatçılar köhnə, sərt və qapalı siyasət üslubuna qarşı çıxaraq yeni və açıq dialoqa əsaslanan bir yol seçiblər.*

M.Pezeşkianın planı İranı yenidən dialoqun, diplomatiyanın mərkəzinə çevirməkdir. Artıq köhnə metodlar işə yaramır. Dünya dəyişir, region dəyişir, amma İranın illərdir öz köhnə siyasi kursuna sədaqəti onu zamandan geri qoyub. İslahatçılar isə sübut etmək istəyirlər ki, bu millət həm azadlıq istəyir, həm rifah, həm də beynəlxalq aləmdə ləyaqətli yer.

Aprelin 28-də İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın Azərbaycana səfəri bir daha qonşu ölkələr arasında müsbət dialoq mühitinin inkişafını diqqət mərkəzinə gətirdi. Qeyd edək ki, İran rəsmisinin səfəri olduqca dərin məzmun daşıyır. İlk olaraq qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian ilə məhdud və geniş tərkibdə keçirilən görüşləri qarşılıqlı-faydalı əməkdaşlıq mühitində yeni mərhələdən xəbər verir. Bununla yanaşı, mətbuata bəyanatlarla çıxış edən hər iki ölkə lideri regional və qlobal müstəvidə bir çox məsələyə toxunublar. Ölkə başçımız qeyd edib ki, xalqlarımız əsrlər boyu mehribanlıq, qardaşlıq şəraitində yaşayıblar. Bu gün möhkəm təməl üzərində dövlətlərarası münasibətlər inkişaf edir. İran Prezidentinin Azərbaycana rəsmi səfəri əlaqələrimizin yüksək səviyyədə olmasının təzahürüdür. İran prezidenti isə regionda mədəni, dini etiqad, fikir, siyasət və proqramlar baxımından Azərbaycan və İranın çox sayda müştərək məqamlara malik olduğunu diqqətə çatdırdı.

Mətbuata bəyanatlarla çıxış edən dövlət başçıları qeyd etdilər ki, üçtərəfli əməkdaşlıq layihələri geniş müzakirə olunur. Prezident İlham Əliyev bildirdi ki, bu layihələr içərisində Şimal-Cənub nəqliyyat dəhlizi xüsusi əhəmiyyət daşıyır. Sözügedən iri infrastruktur layihəsi yalnız Azərbaycanın deyil, bütün iştirakçı dövlətlərin iqtisadi və siyasi xəritəsində yeni yollar açır, yeni üfüqlər yaradır. Bu nəhəng layihə region ölkələri üçün böyük səmərə gətirəcək, iqtisadi dinamikanı gücləndirəcək. Bu həm də Azərbaycanın beynəlxalq rolundan, onun strateji baxışından xəbər verir. Bu gün ölkəmiz yalnız regionun əsas tranzit mərkəzi olmaqla kifayətlənmir, həm də dünya ticarət yollarının kəsişməsində söz sahibinə çevrilir. Bunların sırasında Şimal-Cənub nəqliyyat dəhlizinin təşviqi, o cümlədən Astara yük terminalının tikintisi üzrə davam edən işlər və Astaraçay çayı üzərində inşa edilmiş yeni avtomobil və piyada körpüsü xüsusi qeyd edildi. Şərq-Qərb dəhlizinin inkişaf etdirilməsi, o cümlədən İran ərazisindən keçməklə Naxçıvanla ən qısa əlaqəni təmin edəcək Ağbənd-Kələlə avtomobil və dəmir yolu bağlantısının yaradılması xüsusi yer tutur. O cümlədən Siyahrud-Ordubad avtomobil körpülərinin inşasını nəzərdə tutan Şərqi Zəngəzur-Naxçıvan nəqliyyat infrastrukturunun əhəmiyyəti, habelə müvafiq sərhəd-gömrük infrastrukturunun tikintisinin önəmi xüsusi vurğulanmalıdır.

Qeyd etmək yerinə düşər ki, son aylarda İranla Azərbaycan arasında sıxlaşan diplomatik təmaslar bölgədə yeni əməkdaşlıq səhifəsinin açıldığını göstərir. İranın yüksəkvəzifəli rəsmilərinin azərbaycanlı həmkarları ilə keçirdikləri görüşlərdə iki ölkə arasında iqtisadi, ticarət və humanitar sahələr üzrə dövlət komissiyalarının fəaliyyəti xüsusi diqqət çəkir. Bu platforma artıq sadəcə kağız üzərində qalmış bir struktur deyil. Real nəticələr doğuran, yeni imkanlar yaradan əməkdaşlıq meydanıdır. İranlı rəsmilər də bu komissiyanın aktivləşməsini Azərbaycan-İran münasibətlərində əsas körpülərdən biri kimi qiymətləndirirlər. Sözlərdən əmələ, niyyətdən konkret layihələrə keçid məhz bu kimi görüşlər nəticəsində realizə edilir. Əməkdaşlıq isə artıq yalnız ikitərəfli çərçivədə məhdudlaşmır. Bakı ilə Tehran arasındakı həmrəylik İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO), AQEM və D-8 kimi beynəlxalq platformalarda da aydın hiss olunur. Mövqelərin yaxınlaşması regional həmrəyliyi daha da gücləndirir, ortaq maraqlara söykənən davamlı tərəfdaşlığın əsasını qoyur.

Məsud Pezeşkianın Azərbaycana səfəri əslində mart ayından planlaşdırılırdı. Martın 31-də Azərbaycan və İran arasında yeni bir səhifənin yazılmasına təkan verən mühüm bir hadisə baş verdi. Prezident İlham Əliyev və İran Prezidenti Məsud Pezeşkian arasında telefon danışığı iki qonşu ölkə arasındakı münasibətlərə yeni nəfəs gətirdi. Səmimi, açıq və praqmatik ruhda baş tutan bu söhbət zamanı səfərin məqsədləri və mahiyyəti müəyyən olundu. Pezeşkian bildirdi ki, bu səfər sadəcə protokol tədbiri deyil, iki dost və qardaş xalq arasında mehriban qonşuluq, qarşılıqlı hörmət və anlaşmanın bərqərar olması naminə atılan ciddi addım olacaq. Əslində, ilin əvvəlindən müşahidə olunan intensiv diplomatik təmaslar, fəallaşan siyasi kanallar və yüksək səviyyəli görüşlər bir həqiqəti açıq şəkildə ortaya qoyurdu ki, Azərbaycan-İran münasibətlərində illər boyu dolaşan soyuqluq, zaman-zaman baş qaldıran gərginliklər artıq tarixə qovuşmaq üzrədir. Lakin diplomatiya ani qələbələr deyil, uzun və çətin marafonlar uğrunda aparılır. Bu gün isə həm Bakıda, həm Tehranda anlayırlar ki, qarşılıqlı maraqları, ortaq tarix və mədəni bağları olan iki ölkə yalnız gələcək perspektivlər üzərində diqqəti cəmləməlidir. Yeni reallıqları qəbul edən Azərbaycan və İran artıq praqmatik yanaşma sərgiləyir, münasibətlərdə yeni etimad körpüsü inşa etməyə çalışırlar. Rəsmi Bakı dəfələrlə bəyan edib ki, qonşularla, xüsusilə də İranla münasibətlərdə mehriban qonşuluq, qarşılıqlı hörmət və güclü iqtisadi-siyasi əməkdaşlıq prinsipləri əsas hədəfdir. İndi isə Məsud Pezeşkian dövründə müşahidə edilən ilk addımlar ümid verir ki, bu yanaşma öz faydasını verəcək. İki xalq arasında mehriban qonşuluq münasibətləri daha da möhkəmlənəcək.

Uzun illər boyunca ehtiyatlılıqla müşayiət olunan Azərbaycan-İran hərbi münasibətləri bu gün yeni bir mərhələyə qədəm qoyur. Artıq tərəflər arasında qarşılıqlı etimada söykənən real əməkdaşlıq mühiti formalaşır. Bu dönüşün bariz nümunəsi isə 2023-cü ilin noyabrında baş tutan "Araz-2024" adlı birgə taktiki təlim oldu. Azərbaycan Ordusunun Quru Qoşunlarının və İran İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) xüsusi təyinatlılarının birgə iştirakı, iki ölkənin təhlükəsizlik baxışlarının ortaq platformada birləşdiyinin rəmzinə çevrildi. Bu təlim təkcə hərbi əməkdaşlığın deyil, bölgədə sabitlik və qarşılıqlı inamın möhkəmlənməsinin də bariz təzahürü idi. İqtisadi sahədə də oxşar dinamika müşahidə olunur. Bu ilin yanvarında Baş nazirin müavini Şahin Mustafayevin İrana səfəri, iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Birgə Dövlətlərarası Komissiyanın 16-cı iclasında iştirakı bu baxımdan mühüm əhəmiyyət kəsb etdi. Həmin görüşlərdə rəsmi Bakı ilə Tehran arasında əməkdaşlığın cari vəziyyəti, yeni təşəbbüslər və gələcək perspektivlər müzakirə olundu. Bu dialoqlar sadəcə kağız üzərində qalan sənədlərlə kifayətlənməyib, real layihələrə, konkret addımlara çevrilməkdədir.

Bütün bu səfərlər, görüşlər, təlimlər fonunda aydın görünür ki, Azərbaycan-İran münasibətləri artıq keçmişdəki narahatlıqlarla deyil, gələcəyə hesablanmış strateji baxışlarla müəyyən edilir. İki qonşu ölkə xalqlarının rifahı, bölgədə sülhü və sabitliyi hədəfləyən yolda addımlayır.

**Nurlan ABDALOV,**
**"Respublika".**

Respublika .- 2025.- 29 aprel (№85).- S.6.